"**Xalq qəzeti**".-2009.-9 aprel.-N 74.-S.5.

# Naxçıvanın müqəddəratı necə müəyyənləşdirildi

*Naxçıvanın muxtariyyət statusu alması çox ağır, gərgin bir dövrdə, gərgin mübarizələr nəticəsində mümkün olmuşdur.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

***Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 fevral 2009-cu il tarixli sərəncamında qeyd olunduğu kimi, "Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycan dövlətçiliyinin tarixində xüsusi ictimai-siyasi və tarixi əhəmiyyəti vardır".***

Azərbaycanın şimal ərazilərinin Rusiya imperiyası tərəfindən işğalı kütləvi köçürmə siyasəti, inzibati ərazi müəyyənləşdirilməsi ilə müşayiət olundu. Azərbaycan əhalisinin əzəli tarixi-coğrafi yaşayış məskənləri Rusiya hökuməti tərəfindən tətbiq edilən, mütəmadi dəyişdirilən və etnosiyasi məqsəd güdən yerli idarəçilik formalarına tabe edilməklə xeyli itkiyə məruz qaldı.

XX yüzilin əvvəllərində, 1917-ci ilin fevral inqilabı ilə süqut edən Rusiya imperiyasında ucqar bölgələrin, xalqların taleyi müəyyənləşdirilmə prosesində idi. Dünyanın güclü dövlətlərinin Qafqazda, Xəzər dənizi hövzəsində maraqların toqquşması, nüfuz mübarizəsi, biri digərini əvəzləyən xarici hərbi qüvvələrin bölgədə "arbitr" missiyası və onları öz maraqlan naminə "sabitlik" yaratmaq səciyyəli ərazi-inzibati tədbirləri vəziyyəti daha da qəlizləşdirmişdi. Region üçün ən məşum rolu ənənəvi dağıdıcı erməni millətçiliyi, onun "Böyük Ermənistan" iddiasından doğan qəsbkarlıq və soyqırımı siyasəti oynadı. Daşnak təhlükəsi ilə üz-üzə qalmış Naxçıvan torpağının taleyi də kəşməkeşli olmuşdur. İrəvan quberniyası tərkibinə aidiyyəti və İrəvanın ermənilərə verilməsi yerli əhalini çox çətin vəziyyətdə qoymuşdu. Göyçə gölünün cənubunda, Zod, Böyük Vedi, Vedibasar, Milistan və başqa kəndlərdə, Şərur-Dərələyəzdə və İrəvan yaxınlığında müsəlmanların müqaviməti daha kəskin olmuşdur. Mübarizə zamanı onlarla müsəlman kəndi məhv edilsə də, müsəlmanlar erməni dəstələrini sıxışdırmağa və bölgənin, əhalinin hüquqlarının beynəlxalq sülh konfransında diqqətə alınması şərti ilə müttəfiqlər tərəfindən neytral zona elan edilməsinə müvəffəq olmuşdular. Azərbaycan Cümhuriyyəti Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində süqut etdikdən az sonra Azərbaycan torpaqlan siyasi sövdələşmə predmetinə çevrilmişdi. Rusiya hökuməti Azərbaycanı Ermənistanın xeyrinə Şərur-Dərələyəz qəzasından və Naxçıvan rayonundan imtina etməyə sövq edirdi. Bunu Sovet dövlətinin başlıca rəhbərlərindən olmuş İ. Stalinin məsələyə münasibətində müəyyən etmək mümkündür: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa, vermək olar ". Əvvəlcədən qərarlaşdırılmış bu ssenari 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin elan edilməsi aktından dərhal sonra həyata keçirilməyə başlandı. Lakin "üzərində dəfələrlə israr edilən" "türk qapısı" (birinci Stalinin, ikinci Atatürkün ifadəsidir) Naxçıvanın əhalisi tarixi qətiyyət göstərərək silahlı müqavimət həddinə qədər mübarizə aparıb, Ermənistan idarəçiliyinə daxil olmadı. Sovet Ermənistanı hökuməti Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını bəyan etdi. Bölgə ilə bağlı 26 və 28 dekabr 1920-ci il bəyanatlarını Ermənistan inqilab komitəsi Azərbaycan hökumətinə deyil, Naxçıvana göndərmişdi. Lakin tezliklə Naxçıvanda keçirilən rəy sorğusu erməni xislətli siyasi uzaqgörənliyə ümid yeri qoymadı: əhalinin 90 faizi Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Bu statusa hüquqilik qazandıracaq müqaviləni Türkiyə tərəfinin Qafqaz respublikaları ilə ayrı-ayrılıqda, ikitərəfli qaydada imzalamaq cəhdi gərgin prosesə çevrilmişdi. Ankara hökumətinin Yusif Kamal, Əli Fuad və doktor Riza Nurdan ibarət nümayəndə heyəti 1921-ci ilin fevralında Moskvaya gələrək Sovet dövləti ilə danışıqlar aparmışdır. Həmin dövrdə Azərbaycan SSR hökumətinin başçısı olan Nəriman Nərimanov türklərlə danışıqlar zamanı Sovet tərəfinin nəzərə almalı olduğu şərtləri məktub vasitəsilə

V. Leninin diqqətinə çatdırmışdı: "Türkiyə nümayəndə heyəti bizim nümayəndəmiz Behbud Şahtaxtinski ilə birlikdə Moskvaya gedir... Onlar üçün ən prinsipial məsələ erməni məsələsidir... onlar dedilər: "Erməni məsələsi ölüm-dirim məsələsidir"... Moskva erməni məsələsinə görə türkləri özündən uzaqlaşdırsa, onlar məyus olub, İngiltərəyə üz tuta bilərlər... Mən Sizi xəbərdar etməyə borcluyam: yoldaş Çiçerin Şərq məsələsini dolaşdırır, o,

erməni məsələsinə həddən artıq uyur və məhz erməni məsələsi üzündən türklərlə aramızın dəyməsi nəticəsində nələr baş verə biləcəyini nəzərə almır... Mən qəti deyirəm ...biz nəyin bahasına olursa-olsun türklərlə möhkəm ittifaq bağlamalıyıq."

Fevralın 19-da məktubla tanış olan V. Lenin bir çox məqamları xətt çəkərək ayırmış və dərkənarda məktubu Mərkəzi Komitənin bütün üzvlərinin oxumasını tapşırmışdı. Məktubu oxuduqlarını qeyd edənlər içərisində N. Buxarinin qeydi diqqəti çəkir: "Əgər səhv etmirəmsə, həmin nümayəndə heyəti artıq gəlmişdir və heç yerdə qəbul edilmir". N. Nərimanovun Leninə məktubu türk nümayəndə heyətinə münasibətdə, danışıqlar prosesində sovet tərəfinin mövqeyinə təsirsiz qalmamışdır. Fevralın 21-də Leninə ünvanladığı ikinci qısa məktubunda da N. Nərimanov yazmışdı: "Mən güman edirəm ki, Türkiyə nümayəndə heyəti ilə danışıqlarda erməni məsələsi rol oynamamalıdır ".

1921-ci il fevralın 26-da Moskva konfransı açıldı. Müzakirə olunmuş ümdə məsələlərdən biri də Naxçıvana aid olmuşdur. Martın 16-da Türkiyə və RSFSR arasında dostluq və qardaşlıq haqqında imzalanmış müqavilədə Naxçıvanın müqəddəratı xüsusi bəndlə (3-cü maddə) qərarlaşmış oldu: "Razılığa gələn hər iki tərəf hazırkı müqavilənin 1(B) əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir. Naxçıvan torpaqlarının sərhəd xəttinin müəyyənləşdirilməsi məsələsi də maddədə əksini tapmışdır. Beləliklə, Naxçıvan Azərbaycanın himayəsində qalmaqla yeni beynəlxalq hüquqi status qazanmışdı. Naxçıvan əhalisinin təhlükəsizliyinin təminat qarantı kimi Türkiyə ordusunun aktiv mövqe tutacağı da sənədləşdirilmişdi.

Moskva müqaviləsi RSFSR MİK tərəfindən 1921-ci il martın 20-də, Türkiyə Böyük Millət Məclisi tərəfindən isə 1921-ci il iyulun 21-də ratifikasiya olunmuş, onların mübadiləsi sentyabrın 22-də Türkiyənin Qars şəhərində həyata keçirilmişdir. Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələləri nizama salmaq məqsədilə yeni konfrans çağırmaq zərurəti yaranmışdı. Konfrans Qarsda 1921-ci il 26 sentyabr 13 oktyabr tarixində keçirilmişdir.

Qars müqaviləsinin hər bir Qafqaz respublikası tərəfindən ayrıca təsdiq olunmasında təkid edən Türkiyə diplomatiyasının son ümid yeri olmuşdur: Yusif Kamal buna nail olmağı və işin sürətləndirilməsinə təsir göstərmək baxımından Nərimanovla əlaqə yaratmağı İbrahim Əbilovdan xahiş etmişdir. Nərimanov birinci Ümumazərbaycan Sovetlər qurultayında Naxçıvanla bağlı suala konkret cavab vermişdi: Sovet Rusiyası ilə Türkiyə arasındakı müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratı altında müstəqil respublika elan olunur. Orada bizim nümayəndəmiz olacaq və biz hər cəhətdən Naxçıvana xidmət edəcəyik.

Qars müqaviləsi Naxçıvanın müqəddəratını bir daha müəyyənləşdirdi, ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi. Zaqafqaziya seymində, AXC parlamentində, Ermənistanın, Türkiyənin parlamentlərində, Paris sülh konfransında, Sovet hökuməti tərəfindən dəfələrlə müzakirə edilmiş Naxçıvan məsələsi Moskva və Qars müqavilələri ilə qəti həllini tapmış oldu. Bu müqavilələr Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtar qurum kimi qalmaq imkanlarını reallaşdırdı. Müqavilələri imzalayan dövlətlər Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusuna beynəlxalq hüquqi təminat vermiş oldular.

1924-cü il fevralın 9-da Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar SSR-nin təşkilindən sonra ermənilərin "qaçqınlıq" pərdəsi altında Naxçıvan ərazisinə köçüb yerləşmək yolu ilə bölgədə etnodemoqrafik vəziyyəti öz xeyirlərinə dəyişdirib gələcəkdə Naxçıvanın statusuna yenidən baxılması və iddialarının əsaslandırılması məqsədilə etdikləri cəhdlərin qarşısı alınsa da, 1920-ci illərin sonlarında Naxçıvan MSSR-in 657 kvadrat kilometrlik ərazisi Ermənistan SSR-ə verilmiş, beləliklə Azərbaycan hakimiyyəti altındakı Naxçıvan bölgəsi ilə birbaşa ərazi bağlılığına son qoyulmuşdur.

1921-ci ildə bağlanmış beynəlxalq müqavilələrə zidd olaraq həyata keçirilmiş bu dəyişiklikliyin SSRİ dövründə qüvvədə qalması SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa etmiş dövlətlər tərəfindən məqbul bilinməməlidir. Cənubi Qafqazda özlərini 1918-1920-ci illərdə mövcud olmuş dövlətlərin varisi elan etmiş hazırkı dövlətlərin ərazi bütövlüyü həmin hüdudlarda bərpa olunmasa da, beynəlxalq xarakterli müqavilə kimi, bir tərəfdən Ermənistan, Azərbaycan, Gürcüstan, digər tərəfdən Türkiyə arasında RSFSR-in iştirakı ilə bağlanmış və ratifikasiya fərmanlarının mübadiləsi 1922-ci il sentyabrın 11-də İrəvanda keçirilmiş, elə həmin gündən qüvvəyə minmiş Qars müqaviləsinə əsasən Naxçıvan Muxtar Respublikasının ərazisi sənəddə göstərildiyi kimi bərpa olunmalıdır: "Türkiyə hökuməti, Ermənistan və Azərbaycan Sovet hökumətləri hazırkı müqavilənin 3 saylı əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsi altında Muxtar ərazi təşkil etməsinə razıdırlar". Müqavilənin fəaliyyət müddəti məhdudlaşdırılmamışdır.

ZSFSR-nin, həmçinin SSRİ-nin hələ yaradılmadığı dövrdə Ermənistanın müstəqil dövlət olaraq səlahiyyətli nümayəndələrinin imzaladığı Qars müqaviləsi ilə Azərbaycan dövlətinin Naxçıvan üzərində hakimiyyəti birmənalı

təsbit edilmişdir. 1924-cü il fevralın 9-da isə Azərbaycan SSR MİK Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusunu qəti bərqərar etdi. Bu tarixi nailiyyətin qoruyucu təminatı Azərbaycan xalqının dönməz iradəsi, Azərbaycan dövlətinin siyasi qətiyyəti olmuş və olacaqdır.

**Firdovsiyyə ƏHMƏDOVA,**
tarix elmləri namizədi,
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının dosenti